# Bədən tərbiyəsi və idman mütəxəssisləri hazırlayan ali məktəb

*(əvvəli 4-cü səhifədə)*

Azərbaycan Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq olundu. Proqramın əsas məqsədi təhsilin digər pillələrində olduğu kim, ali təhsil sahəsində də mövcud potensialı saxlamaq və inkişaf etdirməkdən, müvafiq normativ-hüquqi bazanı yaratmaqdan, cəmiyyətin Azərbaycan Respublikası Konstitusiyasında, "Təhsil Qanunu"nda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşdirilməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarət idi.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası İslahat Proqramının qarşıya qoyduğu məqsədin reallaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirdi. Belə ki, Nazirlər Kabineti və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş əsasnamə və qaydalara uyğun olaraq, ADBTİA-nın spesifik xüsusiyyətlərini əks etdirən normativ sənədlər hazırlandı. İxtisas strukturuna yenidən baxıldı, akademiyaya tələbə qəbulu və kadr hazırlığının istiqamətləri üzrə aparılmış işlər təkmilləşdirildi. Təhsil Nazirliyinin 10 avqust 1999-cu il tarixli əmri ilə "Tələbələrin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında Əsasnamə" təsdiq olundu. Həmin Əsasnaməyə uyğun olaraq ADBTİA-da eksperiment olaraq tələbələrin yalnız birinci kurs üzrə biliyinin qiymətləndirilməsində 100 ballı sistemə keçildi. Sonrakı illərdə bu sistemin tətbiqi akademiyanın başqa kurslarını da əhatə etdi.

2005-ci il mayın 19-da Azərbaycan Balonya sisteminə qoşuldu. Məlumdur ki, Bolonya sistemi məqsədi işçi qüvvəsi və mütəxəssislərin vahid Avropa bazasını yaratmaq, Avropa birliyinə daxil olan dövlətlərin təhsil sistemlərini və vətəndaşlarının düşüncə tərzlərini bir-birinə yaxınlaşdırmaq, ortaq dəyərlər ətrafında birləşmək və ali təhsil müəssisələri arasında məhsuldar əməkdaşlıq qurmaqdır. Bununla əlaqədar olaraq "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu"nda dəyişikliklər aparıldı. Yeni struktura uyğun olaraq Təhsil Nazirliyinin 4 avqust 2006-cı il tarixli əmri ilə təsdiq olunmuş Dövlət Standartları əsasında ADBTİA tərəfindən 2 istiqamətdə ixtisas üzrə tədris planları hazırlandı. Sonrakı illərdə ADBTİA-da kredit sistemi ilə tədrisin təşkilinin əhatə dairəsi daha da genişləndirildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərfindən təhsil sahəsində hazırlanmış konsepsiya



bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. 2008-ci ilin yanvarında Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycanın ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamda Azərbaycan təhsilinin Avropa məkanına inteqrasiyasına geniş yer verilir və əsas vəzifələr müəyyənləşdirilir. Sənəddə ali təhsilin bütün sahələrinin hərtərəfli inkişafı, Avropa və dünya təhsil sisteminə qoşulması, bu işin, əlbəttə ki, düzgün seçilmiş kadrların üzərinə düşməsi vurğulanır. Fəaliyyət planına müvafiq olaraq akademiyanın proqramı hazırlandı. Hazırda proqramın yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Son dövrlərdə ölkəmizdə bütün sahələrdə baş verən dəyişikliklər 85 illik tarixə malik Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının da fəaliyyətini keyfiyyətcə yeni müstəviyə qaldırmışdır. Ümumiyyətlə, ADBTİA-nın rektoru professor Ağacan Abiyevin bu akademiyanın inkişafındakı fəaliyyəti də xüsusilə qeyd olunmalıdır. Belə ki, akademiya menecmentində keyfiyyətə nəzarətin müasir sistemlərinə də mühüm yer verilmişdir. Burada başlıca məsələlərdən biri tələbələrin akademiyada idarəetmə proseslərinə cəlb olunmasıdır. Akademiyanın bütün strukturlarında tələbə kollektivinin iştirakı təmin edilmişdir. Dərsə davamiyyətə nəzarət avtomatlaşdırılmış nəzarət sistemi olan işıqfor proqramı yaradılmış, tələbələrə xidmətin keyfiyyətini daha da artırmaq məqsədini daşıyan "Elektron dekanlıq" layihəsinin gerçəkləşdirməsinə başlanılmışdır. Hazırda tələbələr akademiyanın böyük Elmi Şurasından tutmuş fakültələrin ictimai təşkilatları da daxil olmaqla bütün seçimli orqanlarda iştirak edirlər. İnanırıq ki, 85 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ölkəmizdə ali təhsil sisteminin flaqmanlarından biri kimi, bundan sonra da yüksək səviyyədə fəaliyyət göstərəcəkdir.



***Dilqəm Quliyev,***
***pedaqogika üzrə fəlsəfə doktoru, professor***